# Qarayazı Dövlət Təbiət Qoruğu diqqət mərkəzindədir



Respublikamız başdan-başa möcüzələr diyarıdır. Dünyada mövcud olan 11 iqlim qurşağının 9-u Azərbaycandadır. Bu füsunkar və ecazkar təbiəti qorumaq, inkişaf etdirmək və gələcək nəsilə çatdırmaq hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Ölkəmizin hər bir guşəsində özünəməxsusluğu və unikallığı ilə seçilən bir çox məkanlar vardır. Azərbaycanımız regionda flora və faunasının, təbii sərvətlərinin bolluğuna görə ən zəngin məmləkətdir. Akademik Həsən Əliyev "Həyəcan təbili" kitabında yazır: "Meşə - su, var-dövlət, bolluq deməkdir. Ərazisinin 25-30 faizi meşə ilə örtülü olan bir ölkədə heç vaxt quraqlıq təhlükəsi yaranmaz, tarlalarda daim sabit və yüksək məhsul götürülər. Elə buna görə də respublikamızda meşələrin sahəsini genişləndirməyə böyük ehtiyac var".

Azərbaycanda hər kəsin əməyinə xüsusi hörmətlə yanaşan ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə hər il 23 may Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı kimi qeyd olunur.

Bu günlərdə flora və faunası ilə zəngin olan Ağstafa rayonundakı Qarayazı Dövlət Təbiət Qoruğunun vəziyyəti ilə maraqlandıq. Bununla bağlı **qoruğun direktoru Sahib Abdulkərimliyə** müraciət etdik. S.Abdulkərimli 2010-cu ildən qeyd olunan müəssisəyə rəhbərlik edir. O qeyd etdi ki, 1978-ci ildə təşkil olunmuş Qarayazı Dövlət Təbiət Qoruğu ölkəmizin qərbində, Ağstafa rayonunda Kür çayının sol sahilində yerləşir. Əvvəllər bu qoruqda baxımsızlıq olmuş, meşə sahəsi bir qədər azalmışdır. Lakin ulu öndər Heydər Əliyevin təbiətə olana sevgisi və qayğısı nəticəsində təşkil edilmiş qoruğun məhv olma təhlükəsi onun ikinci dəfə hakimiyyətə gəlməsi ilə aradan qalxdı. Milli liderin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin hər sahədə olduğu kimi ekologiyanın mühafizəsi sahəsində də apardığı məqsədyönlü siyasət nəticəsində son illərdə ölkədəki mövcud qoruqların mühafizəsi daha da gücləndirilməklə bərabər yeni qoruqlar və milli parklar da təşkil olunmuşdur. Bu sahədə Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA ictimai birliyinin sədri Leyla xanım Əliyevanın misilsiz xidmətləri danılmazdır. Yaxın vaxtlarda İDEA ictimai birliyinin üzvləri qoruğa gələrək mövcud problemlərlə tanış olacaqlar. Qarayazı Dövlət Təbiət Qoruğu rəhbərliyi və kollektivi əmindir ki, mövcud olan çatışmazlıqlar İDEA ictimai birliyi tərəfindən kökündən həll olunacaqdır.

S.Abdulkərimli qeyd etdi ki, qoruqda zəngin heyvanlar aləmi mövcuddur. Burada 29 növ müxtəlif çöl quşları yaşayır. Bir neçə növ ördək, qartal, qızılquş, qırğı, qaz, qırqovul, anqut, sultan-toyuğu, su fərəsi, qaşqaldaq və s. quşlar vardır. Həmçinin qoruq ərazisi köçəri quşlar üçün də yuvadır. Heyvanlar aləmi ilə zəngin olan qoruqda son hesablamalara əsasən heyvanların sayı aşağıdakı kimidir: Qafqaz maralı 3, çöl donuzu 80, canavar 30, çaqqal 410, dovşan 550, dələ 127, bataqlıq qunduzu 430, porsuq 118, qamış pişiyi 93, kirpi 150, meşə pişiyi 90 baş təşkil edir. Mütəmadi olaraq qoruğun işçiləri tərəfindən monitorinqlər keçirilərək xəstə heyvanlar və quşlar aşkar olunub aidiyyəti orqanlara məlumat verilir və ciddi tədbirlər görülür. Qarayazı Dövlət Təbiət Qoruğunun ərazisi 9658 hektardır. Burada bitkilər aləmi də zəngindir: palıd növləri, qovaq, qarağac, saqqız ağacı, akasya, cır zoğal, göyəm, cır alma, cır armud ağacları, yulğun, iydə, yemişan kolları və başqa bitkilər qoruğu daha da rəngarəng edir.

Sahib Abdulkərimli qeyd etdi ki, müəssisənin əsas vəzifəsi qoruğun flora və faunasını ciddi şəkildə qorumaq və qış ayları sərt keçərsə heyvanların aclıqdan əziyyət çəkməməsi üçün onları qida ilə təmin etməkdir. Qərb bölgəsinin füsunkar gözəlliyə və ecazkar təbiətə malik olan bu möcüzəli diyarının qorunub saxlanması üçün idarənin əməkdaşları bundan sonrakı fəaliyyətlərini yüksəltməyi və daha məsuliyyətlə işləməyi qarşılarına məqsəd qoymuşlar.

**Vəli VƏLİYEV,**
**"Respublika".**